# Mətndə əsas və köməkçi fikirlərin fərqləndirilməsi

Mətnin məqsədindən asılı olaraq, müəllifin çatdırmaq istədiyi informasiya, məqam və ya irəli sürdüyü fikir olur. Ona görə də bəzi mətnlərdə fikir, digərlərində isə məqam, yaxud informasiya təhlil obyektidir. Bədii, elmi, bir sıra publisistik mətnlərin inandırıcılıq funksiyasına görə təhlilində fikir, ideya, məlumatlandırıcı mətnlərdə isə məqam, yaxud informasiya anlayışlarından istifadə etmək uyğundur.

Mətndə əsas və köməkçi fikirlər, başqa sözlə, əsas və köməkçi məqamlar olur.

Mətndə fikrilər açıq şəkildə verilir və ya oxucu müxtəlif məqamlara əsasən onu müəyyənləşdirir. Bədii mətnin əsas fikri oxucunun bütöv mətni oxumasından sonra əldə etdiyi fikirdir. Oxucu "Nə baş verdi?", "Nə üçün?", "Necə?" suallarına cavab verməklə əsas fikri müəyyən edir. Bədii mətnlərdə əsas fikir bütöv məzmunun təhlili nəticəsində əldə edilməklə yanaşı, açıq şəkildə – obrazların birinin dilindən və ya müəllif ricəti vasitəsilə verilə bilər. Elə bədii mətnlər var ki, məsələn, təsviri mətnlərin təhlilində fikir, ideya anlayışından deyil, məqamlardan bəhs etmək doğru olar. Elmi və publisistik mətnlərdə əsas fikir müəllifin isbat etmək istədiyi fikirdir. Belə mətnlərdə istər əsas, istər köməkçi fikirlər açıq şəkildə verilir. Hətta mətnin giriş hissəsində artıq oxucu onlarla tanış olur. Bu, xüsusilə elmi mətnin qarşısında duran tələbdir.

Köməkçi fikirlər, başqa sözlə, əsaslandırıcı məqamlar – əsas fikrin isbatı üçün verilmiş məlumatlar, faktlar, mühakimələr ola bilər. Elmi və publisistik mətnlərdə köməkçi fikirlər tezisin tərkib hissəsinə daxil olan arqumentlərdir. Bədii mətnlərdə obrazın xarakterinin, situasiyanın açılmasına xidmət edən məqamlar köməkçi məqamlardır.

Elmi, elmi-publisistik, publisistik və bədii mətnlərin məzmunu təhlil edilərkən onun əsas və köməkçi fikirləri müəyyənləşdirilir. İnformasiya xarakterli mətnlərdə isə əsas və köməkçi məqamlar, yaxud informasiya axtarılır.

**Bədii mətndə əsas və köməkçi fikirlərin fərqləndirilməsi.**

### Yalançılığın nəticəsi

Səmədin ən böyük əyləncəsi bir para yalanlar deyib, başqalarını aldatmaq idi. On iki yaşında olan Səməd beş yaşında olan bacısı Fatiməni olmayan şeylərlə aldatdığı vaxt, elə bil ki, dünyanı buna verirdilər.

Bir gün Səməd atasından bir qızıl beşlik qopardı, çox əzəmətli bir hal ilə onu bacısına göstərdi. Qızcığaz heyrətdən gözlərini dörd açıb dedi:

- Aman, qardaşım, qızıl nə gözəl şeydir! Bu haradandır?

Səməd:

- Bacı, sən hələ də qızılın meyvə kimi torpaqda bitdiyini, ağac olduğunu bilmirsən?

- Yalan! Yalan deyib başımı aldatma.

- Yox, bacı! Doğru deyirəm. Qulaq ver mənə, sənə deyim: öncə qızılı əkirlər, sonra yaz gəldikdə bundan böyük və kiçik qızıllar əmələ gəlir. Hətta qızılın ağacı çox gözəl olur. İnsan baxdıqca həvəsə gəlir.

- Bunları doğru deyirsənmi? – deyə qızcığaz dilləndi.

- Əlbəttə, lap doğru deyirəm.

Bu söhbətdən sonra Səməd qızıl beşliyini qutusuna qoyub məktəbə getdi. Yolda öz-özünə: “Aman Allah, bu qızlar necə sadəlövh, necə də məsum olurlar”, – dedi.

Səməd məktəbdən gəldikdən sonra pul qutusunun yanına gəlib, qızıl beşliyi götürmək istədi. Amma pulu orada görmədi. Bacısına:

- Fatimə, buradan mənim pulumu sən götürdün? – deyə soruşdu.

- Qardaşım! Pulu götürüb bağçada əkdim. Görərsən, yazda necə gözəl meyvələr verəcək!

Bu məsumanə cavab üzərinə Səməd acıqlı bir halda:

- Hey, axmaq, ağılsız qız! – deyə qışqırdı. Fatimə isə qardaşının belə acıqlanmasından əsla bir şey anlamadı.

Səməd:

- Harada əkdin? Tez ol, de görüm!

Fatimə əkdiyi yeri yadından çıxarmışdı. Buna görə Səmədin hirsi getdikcə artıb ağlamağa başladı, anasını çağırdı. Bağça arandı-tarandı. Pulu tapmaq mümkün olmadı. Səməd uydurduğu yalandan ötrü əzab və peşmanlıq içində qaldı. Anası da bu fürsəti qənimət bilib dedi:

- Layiq olduğun cəzanı çəkirsən. Oğlum! Əgər bu zərər sənə bir daha yalan danışmamağı öyrədirsə, aldığın dərs itirdiyin puldan daha qiymətlidir.

“Məktəb” jurnalı, 1911, N-3

Mətndə əsas və köməkçi fikirləri fərqləndirmək üçün öncə hadisələrin və onların nəticəsinin ardıcıllığını yazırıq:

1. Səmədin xarakterində yalan danışmaq var.
2. Səməd bacısını aldadır.
3. Bacısının məsumluğunu sadəlövhlük kimi qiymətləndirir.
4. Bacı Səmədə inanıb qızıl pulu torpağa əkməklə onu itirir.

5. Səməd cəzasını alır.

6. Ana Səmədə hadisədən nəticə çıxarmağı tövsiyə edir.

Mətnin əsas ideyasını müəyyənləşdirmək üçün açıq şəkildə verilmiş iki fikirdən istifadə edilir:

1. Qızlar sadəlövh və məsumdurlar.

2. Zərər sənə bir daha yalan danışmamağı öyrədirsə, aldığın dərs itirdiyin puldan daha qiymətlidir.

Təhlildən göründüyü kimi, hekayədən iki qənaət əldə edirik:

1. Həyatda insanların məsumluğunu sadəlövhlük hesab edib onları aldadan adamlar var.

2. Yalan cəzasız qalmaz.

Birinci qənaət əsas fikrin açılmasına xidmət edən köməkçi fikirdir.

Nümunə olaraq istifadə etdiyimiz hekayədə müəllifin ideyası açıq cümlə şəklində əksini tapmışdır. Lakin elə bədii mətnlər var ki, onun ideyası açıq şəkildə verilmir. O halda oxucu məqamları dəyərləndirib fikri formalaşdırmalıdır.

**Publisistik mətndə əsas və köməkçi fikirlərin fərqləndirilməsi.**

**Sinifdə niyə bəzi uşaqlar digərlərindən daha çox öyrənmək həvəsində olurlar?**

Uşaqlar məktəbə qədəm qoyduğu andan müəllimlər öncə onların öyrənməyə marağını formalaşdırmağa başlayırlar. Lakin müəllimlərin eyni diqqət göstərdiyi uşaqların dərsə maraqları çox fərqli olur. Uşaqların oxumaq istəyi onların yalnız məktəbdə təhsili ilə bağlı deyildir, ailənin də bu marağın yaradılmasında böyük rolu vardır. Valideyn övladının ilk müəllimidir: evdə kitaba maraq göstərildiyini müşahidə edən və daim valideynləri ilə bərabər kitab oxuyan uşaqların təhsilinin daha uğurlu olduğunu görürük.

Uşağın böyüdüyü mühitdə böyüklərin kitaba maraq göstərmələri onların gələcəkdə təhsilə marağının zəminidir. Ailədə kitablara maraq göstərən, daim mütaliə edən adamların olması uşağın oxumağa, öyrənməyə marağının artmasına səbəb olur. Kiçik yaşlarından kitab hədiyyələri qəbul edən uşaqlarda kitabla ünsiyyət vərdişi yaranır. Uşaqlar həmçinin böyükləri təqlid etməyi xoşladıqları üçün mütaliə edən valideynə baxaraq eyni hərəkəti təkrarlayırlar. Bununla da, uşaqlarda oxuya marağın əsası kiçik yaşlarından qoyulur.

Uşaqlara kitab oxumaq, nağıl, hekayə danışmaq da onlara kitab hədiyyə etmək qədər faydalıdır. Bəzi ailələrdə uşaqlar hələ lap ana bətnində olduqda valideynlər onları müxtəlif oxşamalarla əzizləyirlər. Dünyaya gəldikdən sonra körpəyə layla, oxşamalar söyləyirlər. Böyüdükcə nağıl danışır, kitab oxuyurlar. Belə ailələrdə uşaqlarda kiçik yaşlarından dinləmə qabiliyyəti, düşünmək, sual vermək, münasibət bildirmək bacarıqları yaranır. Dinlədikləri

hekayələr, nağıllar yarımçıq saxlandıqda isə onların fantaziyaları işə düşür, mətni davam etdirmək, ehtimal etmək bacarıqları, estetik zövqləri formalaşır. Bir sözlə, birgə qiraət uşağı kiçik yaşlarından təhsilə hazırlayır.

"Uşaqlar evin güzgüsüdür" deyimini onların təhsilə maraqlarına da şamil etmək olar. Evdə valideynlərinin kitab oxuduqlarını görən, onlardan daim kitab hədiyyələri alan, ədəbiyyat nümunələri dinləyən uşaqların təfəkkürü inkişaf edir, öyrənməyə maraqları yaranır. Məktəbə gələnədək oxuma vərdişi olan uşaqlar təhsildə digərlərindən öndə olurlar.

(Könül Aydın Nəhmətova)

Mətnin əsas və köməkçi fikirlərini fərqləndirmək üçün öncə tezisi müəyyənləşdiririk:

Tezis: Valideyn övladın ilk müəllimidir: evdə kitaba maraq göstərildiyini müşahidə edən və daim valideynləri ilə bərabər kitab oxuyan uşaqların təhsilinin daha uğurlu olduğunu görürük.

Tezisin hökm (müddəa) cümləsini, yəni mətnin əsas fikrini arqumentlərdən fərqləndiririk:

Hökm: Valideyn övladının ilk müəllimidir.

Tezisdə verilmiş arqumentləri fikir cümləsinə çeviririk:

1. Evdə kitaba maraq göstərildiyini müşahidə edən uşağın təhsili daha uğurlu olur.
2. Daim valideynləri ilə bərabər kitab oxuyan uşaqların təhsilinin daha uğurlu olduğunu görürük.

Mətnin giriş hissəsində onun həm əsas fikri, həm də köməkçi fikirləri verilmişdir. Köməkçi fikirlər mətnin ideyasını əsaslandıran fikirlər olduğu üçün onların hər birinin mətnin əsas hissəsində ayrı abzaslarda dəstəklənməsi tezisin dəstəklənməsi, ideyanın təsdiqi deməkdir.

Növbəti addım mətnin giriş hissəsində əksini tapmış arqumentlərin əsas hissədə fikir cümləsinə çevrilməsini izləməkdir. Abzaslardan mənaca arqumentlərə uyğun cümlələri seçirik:

Abzas 1. Ailədə kitablara maraq göstərən, daim mütaliə edən adamların olması uşağın oxumağa, öyrənməyə marağının artmasına səbəb olur.

Birinci abzasın əsas fikri onun ikinci cümləsidir. Birinci cümlə tematik (mövzu) cümlədir.

Abzas 2. Birgə qiraət uşağı kiçik yaşlarından təhsilə hazırlayır.

İkinci abzasda birinci cümlə əvvəlki abzasla əlaqə yaratmaq üçün keçid cümləsidir. Bu abzasda öncə izahlar, sonda isə ideya yekun cümlə kimi verilmişdir.

Seçilmiş cümlələri arqumentlərlə müqayisə etdikdə bunları parafraz olunmuş fikirlər kimi görürük. Bununla da mətnin köməkçi fikirlərini müəyyənləşdiririk.

**Məlumatlandırıcı mətndə əsas və köməkçi məqamların fərqləndirilməsi.**

**Çörək niyə bərkiyir?**

Un kisəsini kran altında oradakı bütün nişasta axıb gedənə kimi yuyun. Kisədə yalnız yapışqanlı, ağır kütlə qalacaq.

Yapışqanın bir əlaməti də var. Bu əlamətlə onu tanımaq çətin deyil: bir-iki saat qaldıqdan sonra o, şüşə kimi qalın və kövrək görkəm alır.

Ona görə də çörək bərkiyir.

(M.İlyin. Yüz min niyə)

Mətndə verilmiş məlumatları seçək:

1. Un su ilə təmasda yapışqana çevrilir.
2. Yapışqan quruduqda bərkiyir.
3. Ona görə də çörək qaldıqda bərkiyir.

Mətnin əsas informasiyası əvvəlki iki köməkçi məlumat vasitəsilə belə ifadə edilir: Tərkibində yapışqan olduğu üçün çörək qaldıqda bərkiyir.

İnformativ mətnin təhlilində bədii və publisistik mətnlərdən fərqli olaraq, mətnin ideyası və köməkçi fikir terminlərindən deyil, əsas informasiya və köməkçi məlumat anlayışlarından istifadə edildi.

**Könül Aydın Nəhmətova**

ARTİ MDPİM-in Əlavə təhsilin məzmunu şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru